**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№364/6** **09 aprel 2024-cü il**

# "Sosial auditə dair metodik vəsait" barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin, Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.1-ci "Sosial auditə dair metodik vəsaitin hazırlanması" bəndinin icrasını təmin etmək, habelə müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov tərəfindən hazırlanmış "Sosial auditə dair metodik vəsait"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Sosial auditə dair metodik vəsait" bəyənilsin (əlavə olunur).
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, təsərrüfat subyektlərinə auditor xidmətləri göstərərkən "Sosial auditə dair metodik vəsait"dən yararlanmaqla yeni auditor xidməti növü olan sosial auditin aparılmasına diqqət yetirsinlər.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2024-cü ilin II rübündə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə birlikdə auditor təşkilatları və sərbəst auditorlar üçün "Sosial auditə dair metodik vəsait" barədə seminarın keçirilməsi təmin edilsin.
4. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, "Sosial auditə dair metodik vəsait"in auditorların 2024-cü il üzrə ixtisasartırma kurslarının tədris proqramına daxil olunması təmin edilsin.
5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində "Sosial auditə dair metodik vəsait"in auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.
6. Bu qərarın və "Sosial auditə dair metodik vəsait"in mətnləri Auditorlar Palatasının internet səhifəsində və "auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**